# Kredo

BARIZƏSİDİR! TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA

Müstəqil ictimai-siyasi, publisistik qəzet № 20 (1100) 20 may 2022-ci il Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


# ƏDƏBİ DÜŞÜNCƏ: YAZIÇI VƏ HƏYAT



## LƏLƏDAĞ GÜCÜ

*yaxud, yazıçı Ulduz Qasımın yaradıcılıq yolu*

Azərbaycan ədəbiyyatının günümüzə qədərki mənzərəsi kifayət qədər rəngarəngdir; söz odur ki, böyük xalı üzərində rənglərin müxtəlifliyi olmasaydı, heç o xalıya baxmağa da dəyməzdi.

Min illikləri aşan ədəbi sözün yaradıcılarını yaddaşa gətirsək, diqqətə çəksək, yəqin ki, uzun-uzadı bir siyahı alınar. Amma hər halda, elə ədəbi simalar var ki, hər hansı başlanğıcda onları xatırlamamaq, onları diqqətə çəkməmək varisliyi inkar olardı. Məqsədimiz müasir Azərbaycan ədəbiyyatının, xüsusilə müstəqillik dövrü Azərbaycan mədəni-mənəvi mühitinin yetirdiyi simalardan biri haqqında söhbət açmaqdır; bu nasir Ulduz Qasımdır. Bəzəksiz, epitetsiz, təltiflərsiz bir sənətkar haqqında danışmaq üçün ad axtarmaq yerinə düşərdi, bu elə Ulduz Qasımdır.

Azərbaycan klassik ədəbiyyatının Məshəti xanım Gəncəvi, Fatma xanım Kəminə, Xurşudbanu Natəvan, Aşıq Pəri... kimi sənətkarlar sözümüzün qadın təfəkküründən keçən, qadın mənəvi mühitindən qaynaqlanan gücünü göstərən simalardır.

XX əsr Azərbaycan ədəbiyyatında qadın şair və tədqiqatçıların - əlbəttə, söhbət ədəbi tədqiqatdan gedir, sayı qədərincə çoxdur. Amma heç olmasa, bir neçə nəfərin adını çəkməli olsaq, xalq şairi Nigar Rəfibəylinin, xalq yazıçısı Əzizə Cəfərzadənin, şairlər Firuzə Məmmədlinin, Nəzakət Məmmədlinin, Flora Xəlilzadənin... yazıçı-publisistlər Şəfəq Nasirin və digərlərinin adlarını sadəcə ad xatirinə çəkmək yox, ən azı yaradıcılıqlarına ehtiram naminə mütləq yada salmaq lazımdır.

Azərbaycan ədəbiyyatı təkcə indiki Azərbaycan respublikasının sərhədləri hüdudunda inkişaf etmir. Əgər ədəbiyyatı dilimiz qədər canlı orqanizm hesab ediriksə, demək, harada Azərbaycan yazıçısı varsa, orada da Azərbaycan ədəbiyyatı var və həmin yazıçının yaradıcılığı timsalında inkişaf etməkdədir.

Özümüzə tanış olan ədəbi fakta güvənclə deyə bilərik ki, Amerikada da Azərbaycan ədəbiyyatı yaşayır və inkişaf edir; çox istedadlı, müasir təfəkkürlü şair, nasir, publisist Azər Əhmədovun timsalında... Bu çoxlu sayda faktlardan biridir. Eləcə də Rusiyada, xüsusilə Moskva ədəbi mühitində yaşayıb-yaradan sənətkarlar var. Onlar Azərbaycan dilinin şirinliyini yad mühitin təsirlərindən qoruyaraq yaşadırlar. Bu sırada XXI əsrin nəsr yaradıcılığı baxımından təmsilçisi olaraq görünən sənətkar Ulduz Qasımdır.

Ulduz Qasım kimdir?

Əvvəlcə suala cavab verməyə çalışaq; o, 1959-cu ildə Cəbrayıl rayonunun Mehdili kəndində anadan olub. Həmin kənddə orta məktəbi medalla bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsinə qəbul olunub. Doğrudur, sonra universitetin adı qismən dəyişdirildi, amma mahiyyət, məzmun kifayət qədər özünü günümüzə qədər qoruyub. Bu gün də həmin universitetin Filologiya, Şərqşünaslıq və Jurnalistika fakültələrini bitirənlər tarixi ənənələri zamanına uyğun olaraq bu və ya digər dərəcədə ruhlarında yaşadırlar. Ulduz Qasımın hələ tələbəlik dövründə necə yaradıcı bir gənc olduğunu xarakterizə edən yazılardan birində oxuyuruq: "Ulduz orta məktəbi 1976-cı ildə Cəbrayılda bitirib. 2 il istehsalatda çalışdıqdan sonra jurnalistika fakültəsinə qəbul olunur. İxtisas fənlərinə daha çox fikir verib. Tez-tez mətbuatda müxtəlif məzmunlu məqalələrlə çıxış edib. Yolunu məktəb divar qəzetlərindən götürən imza böyük mətbuata yol alıb. Artıq tələbəlik illəri sona çatmaq üzrədir". Bu qeydlər Jurnalistika fakültəsinin ikinci kurs tələbəsi Böyükxanım Qasımovanın o vaxtkı universitet qəzetində (25 aprel 1983-cü il) çap olunmuş məqaləsindəndir. Sadəcə burada Ulduzun hələ tələbə ikən necə diqqət mərkəzində olduğuna diqqəti cəlb etmək məqsədi ilə yada saldıq.

*(Davamı 4-cü səhifədə)*

*(Əvvəli 1-ci səhifədə)*

Ulduz hələ tələbə olmamışdan əvvəl yazı əhli idi. Sözə bağlı olduğunu orta məktəbdə oxuduğu çağlardan rayon qəzetinə göndərdiyi yazılarla sübut etmişdi. Ancaq onun məcrasına sığmayan düşüncə axını şagirdlik zamanından başlayaraq tələbəlik dövründə də davam etmişdi.

Ulduz (o vaxt İmanova soyadı ilə tanınırdı) İmanova üçün şagirdlik və tələbəlik mərhələsi gələcəyə romantik duyğularla yaşamaq istəyində olan şair düşüncəsi ilə silahlanmışdı. O, bütün mənəvi mühitini poetik ruh üstə kökləmişdi.

Bu barədə bir qədər sonra...

Amma bu gün Ulduz Qasım adı ilə tanınan və artıq görkəmli yazıçı kimi məşhur olan sənətkar kifayət qədər güclü nəsr təxəyyülünün sahibi olduğunu öz əsərləri ilə sübut edib.

O, 2018-ci ildə *"Qürbət zöhrəsi"* adlı romanını nəşr etdirib. Burada, yeri gəlmişkən, (yəqin ki, gələcəkdə ayrıca bu barədə danışacağıq) bir məqama da diqqət yetirmək olar. Yazıçı dünya modelini ehtiva edən roman janrına nisbətən məhdud dairədən - bir hadisədən, yaxud bir neçə hadisəni birləşdirən təfərüatdan gəlir. Amma Ulduz Qasım birbaşa *"Qürbət zöhrəsi"* romanı ilə kifayət qədər güclü ədəbi müşahidə imkanına malik olduğunu göstərdi. Oxucular onu birbaşa roman müəllifi kimi tanımalı oldu.

Amma onu da qeyd etmək yerinə düşər ki, Ulduz Qasım psixoloji, tarixi, xronoloji ardıcıllığı pozmamışdı. Bu romana qədər o, artıq iki kitabın müəllifi idi.

*"Mən aşığam Qarabağda"* (2013) şeirlər və məqalələr; *"Tələbə gündəliyi"* (2015) lirik roman. Biz bilərəkdən bu iki kitabı cərgədə bir qədər aşağıya çəkdik. Çünki həmin iki kitab Ulduz Qasım yaradıcılığı üçün nə qədər qapı, başlanğıc missiyası daşısa da, o, ruh etibarı ilə bir yaradıcı olaraq ədəbi müstəvidə roman yaratmaq gücünə hələ ilk gəncliyindən sahib olmuşdu.

Ulduz Qasımın növbəti irihəcmli əsəri *"Xocalı şikəstəsi"* (2019) adı ilə nəşr olunub. Bu əsər roman janrında yazılıb. Və bu əsərin ədəbi taleyi kifayət qədər uğurlu olub. Yerinə düşər ki, elə buradaca tanınmış türk yazarı İmdat Afşarın qeydlərini diqqətə çəkək: *"Sizə bir müjdəli xəbər də vermək istəyirəm. Sizin türkcəyə çevirərək yayımladığımız "Qürbət zöhrəsi" və "Xocalı şikəstəsi" adlı kitablarınız türk oxucusunun və bizim Kültür Bakanlığının diqqətlərindən də yayınmadı. Belə ki, Türkiyə Cümhuriyyətinin Kültür Bakanlığı 2020-ci ildə Türkiyənin böyük kitabxanaları üçün alacağı kitablar siyahısına sizin "Xocalı şikəstəsi" kitabınızı da daxil etmişdir. Kitabınız Kültür Bakanlığı tərəfindən 200 ədəd satın alınaraq Türkiyənin ən böyük 200 kitabxanasına göndərildi. Əmin ola bilərsiniz ki, türk oxucuları yüz illər keçsə də, sizin bu kitablarınızı bizim kitabxanalarımızdan əldə edib oxuyacaq. Bir yazarı bundan daha mutlu edəcək nə ola bilir ki?"*. Nə qədər doğru, nə qədər həssas və səmimi yanaşmadır.

*"Solmayan nərgiz"* (2020) roman - bu əsər haqqında da ilkin düşüncə olaraq onu demək olar ki, müəllif bütün yaradıcılığı boyu unutmadığı və psixoloji cəhətdən içərisində olduğu Qarabağ hadisələrini bu əsərdə ehtiva etməyə çalışıb. Bu əsərin də bədii siqlətini şərtləndirən əsas amil müəllifin min km-lərlə uzaqda olmasına baxmayaraq, özünü hadisələrin içərisindəymiş kimi görməsi əsas şərtdir.

*"Ağ göyərçinlər"* (2020) roman - bu əsər də müəllifin Qarabağ uğrunda savaşçı olduğunu göstərən ədəbi faktdır. Demək, o, harada olduğundan asılı olmayaraq yazı müstəvisində Qarabağdadır. Qarabağ uğrunda mənəvi səngərin əsas silahdaşıyanıdır.

*"Qarabağda qiyamət"* (2021) - bu əsəri sənədli publisistik roman da adlandırmaq olar. Ancaq müəllif faktlara, tarixi hadisələrə nə qədər sadiq qalsa da, yenə təxəyyülünü məhdudlaşdırmır. Onun qəhrəmanları prototiplərinin bir çox hallarda eynidir. Bu da onu göstərir ki, müəllif yaşayış məkanı baxımından Qarabağdan uzaqda olmasına baxmayaraq, həmişə və hər vaxt Qarabağ qan-qadasının içərisində olub.

Dini-mistik düşüncədə qiyamət dünyanın axırı olaraq obrazlaşır. Amma Ulduz Qasımın mənəvi sferasında qiyamət haqq-hesab zamanı kimi xarakterizə olunur. Əgər belə demək mümkünsə, bu əsərdə az qala, bir qərinə ərzində haqsızlığın təntənəsini yaşayanlar axır ki, bir vaxt gəlir ki, bu *"təntənələrin"* haqq-hesabını verməli olurlar. Müəllif Azərbaycan ordusunun yenilməzliyini, qüdrətini konkret qəhrəmanların timsalında sözə gətirir. Bu əsərin əsas məziyyətlərindən biri budur ki, əsərin qəhrəmanları nəyin uğrunda və nə üçün vuruşduqlarını çox yaxşı bilir və elə bu bilgilərinə haqqında yarıca danışacağıq, amma burada onu qeyd etmək yerin düşər ki, Ulduz Qasım illər boyu bu 19 il ərzində ruhuna, varlığına yığdığı yaddaş kitabını təzədən oxuyaraq yazısına, yəni yaradıcılığına gətirməyə çalışıb. O başqa məsələdir ki, Ulduz Qasımın Azərbaycandan ayrılmağından sonra Azərbaycanda çox dəhşətli hadisələr baş verib, böyük faciələr yaşanıb. İnsanlar yerindən, yurdundan didərgin olub. Tarix baş-ayaq çevrilib, haqsızlar haqlılıq haqqına sahib olub. Haqlılar yerindən, yurdundan didərgin olmaqdan başqa, üstəlik səslərini də heç olmasa müvafiq ünvanlara çatdıra bilməyiblər. Bütün bunları Ulduz Qasım ardıcıl olaraq uzaqdan-uzağa olsa da, izləyib, informasiyanı gündəlik həyatı məlumatlarla varlığına yığmaqdan başqa həm də həmin həyatın zillətlərini öz içində yaşayıb.

Görünür Ulduz Qasımın həyat tərzini, yaradıcılığını onun mənəvi mühitindəki bu yer-yurd ağrısını yaşamaq tələbatı əsas xarakterizə edən əlamətə çevrilib. Yoxsa, əks təqdirdə o *"Xocalı şikəstəsi"*ni necə öz ruhunda yaşaya bilərdi. Başqa cür *"Ağ göyərçinlər"*i necə yazmaq olardı.

Bir sözlə, Ulduz Qasım bu illər ərzində heç olmasa, bircə gün Azərbaycan haqqında şad bir xəbər eşitsəydi, elə bu əsərlərə rəğmən demək olardı sım yaradıcılığının timsalında Azərbaycanda baş verən və Qarabağla bağlı olan faciəli hadisələr onun səfərbər olmuş ruhunu hərəkətə gətirir. Ruhun hərəkətə gəlməsi rəssam üçün portretin yaranmasıdır. Səs sahibinin dərdini səsə çevirməsidir. Yazıçı üçün bu, əsərin yazılmasıdır.

Ulduz Qasım yaradıcılığının başlıca mövzusu Qarabağdır. Bu o demək deyil ki, Qarabağdan kənar mövzuda qələm işlədə bilmir. Onun *"Tələbə gündəliyi"* lirik povesti (müəllif roman adlandırır), *"Qaçaq Aslan"* tarixi-publisistik əsəri göstərir ki, o, Qarabağ mövzusundan kənar da dəyərli əsərlər yarada bilər və şübhəsiz, bundan sonra da yaradıcılığının indiki bişmiş zamanında belə əsərləri o yaradacaq. Ancaq bu günə qədərki mənəvi mühiti onu Qarabağ uğrunda savaş üçün səfərbər edib.

Tarixən belə olub; müharibə zamanı cəngavərlik genləri hərəkətə gəlir. Döyüş gücü olanlar qabağa çıxır. Hətta biləndə ki, o, döyüşdə öldürüləcək. Bu ölümü şərəf kimi qəbul edir. Yazıçı da belədir. Yaradıcılığı boyu tapındığı ideal uğrunda mübarizə aparır. Hətta onun idealı sarsıntılara məruz qalsa belə yenə öz yolunda sabit-qədəm olur. Əgər belə demək mümkünsə, şərəfli mübarizə onun həyatının mənasına çevrilir.

# LƏLƏDAĞ GÜCÜ

görə ölüm qarşısında dönməzliklərini iradələri ilə göstərirlər.

Əgər belə demək mümkünsə, hələlik Ulduz Qasımın sonuncu irihəcmli əsəri *"Qaçaq Aslan"* (2022) sənədli romanıdır. Bu əsərin əvvəlində müəllif belə bir qeyd verir: *"Roman Aslan Borciyə ithaf olunur"*. Bu əsər haqqında da yəqin ki, gələcəkdə daha geniş və əhatəli danışacağıq. Ancaq qısaca bunu qeyd etmək olar ki, müəllif Qaçaq Aslan obrazı ilə Azərbaycan uğrunda mübarizlərdən birini fakt götürür və böyük tarixi epoxanın xarakterini, təbiətini verməyə çalışır.

Ulduz Qasım Azərbaycandan kənarda yaşayır; bir az da dəqiqləşdirsək, Moskva şəhərində yaşayır. Bir anlığa bizə düşüncəmizdə tərəddüd imkanı yaranır. Bu qədər uzaqda olasan, üstəlik, əgər belə demək mümkünsə, bizim mübarizəmizə yad mühitdə yaşayasan, amma Azərbaycanın bütün mənəvi mühiti ilə birgə nəfəs alasan. Bu, sözün həqiqi mənasında, xüsusi bir düşüncə mühiti yaradır. Demək, yazıçı üçün harada yaşamağın, hansı uzaqlıqda, məsafədə həyat sürməyin yaradıcılıq üçün o qədər də hədd yaratmadığını görmək olar.

O, bir sənətkar kimi və ən başlıcası, bir azərbaycanlı kimi bu yerə-yurda min tellərlə bağlıdır. Və bu telləri biz, onun əsərlərindəki Azərbaycan reallıqları ilə bağlılıqdan görə bilirik.

Ulduz Qasımın söz-sənət adamı olaraq, əsas güvənci onun yaddaşıdır. O, orta məktəbi Azərbaycanda, Qarabağda, bir az da dəqiqləşdirsək, Cəbrayılın Mehdili kəndində bitirib. Bir insanın yaddaşına yığa biləcəyi bütün ehtiyatı 19 yaşına qədər yaşadığı mühitdən götürüb. Bu yaşın 17 ili orta məktəbin son ucunda qurtarır. İki ili də Jurnalistika fakültəsinə qəbul olunmaq uğrunda mücadiləyə həsr edib. Onun mənəvi mühitindəki ardıcıllığın məntiqi gücünü elə öz əsərlərindən də görmək olar. Xüsusilə tələbə gündəliyi əsərindən. Yəqin ki, biz bu əsər ki, o şad xəbərin özünü belə güclü fantaziya imkanı olan bir yazıçı kimi romana çevirə bilərdi. Ancaq bu mümkün deyildi, çünki Ulduz Qasım uzaqdan görməyinə baxmayaraq, Azərbaycanı Azərbaycanın içindəkilərdən də bir az artıq bütün təzadları ilə görmək imkanına malik idi. Buna imkan verən onu bəsirət gözü idi, informasiya təminatı idi. Tarixi bilgisi idi. Ən başlıcası, Azərbaycana bağlılığı idi.

Ulduz Qasım nə qədər həyati müşahidələrə əsaslanırsa, bir o qədər də tarixi-nəzəri düsturlara əsaslanır. O bilir ki, haqsız olan nə vaxtsa öz cəzasını alacaq, haqlı olan nə vaxtsa qalib gələcək.

Antik dünyanın böyük filosofu Aristotel deyirdi ki, *"Nəzəri mühakimələr, görünür, elə həmin nəticəyə gətirib çıxarır. Dünyəvi nemətlərin bir növ vasitə kimi - hər vasitə ilə müəyyən məqsəd üçün yararlıdır - həddi vardır; bunların çox olması bunlara malik olanlara istər-istəməz zərər yetirir, yaxud hər halda heç bir xeyir gətirmir; əgər, ümumiyyətlə, qəbul edilsə ki, mənəvi nemətlər çox gözəl olmaqla bərabər, həm də xeyirlidir, onda onlardan hər biri nə qədər çox olsa, bir o qədər xeyirli olar. Hər halda, biz deyirik ki, şeylərin ən yüksək mükəmməlliyi birinin digəri üzərində üstünlüyünü təyin etmək məqsədi ilə müqayisə edildikdə, görünür, bizim araşdırma zamanı müəyyənləşdiriyimiz kimi, ayrı-ayrılıqda götürüldükdə onların hər birinin arasında olan fərqlə birbaşa əlaqədardır. Bu minvalla, əgər ruh öz-özündən və biz insanlardan ötrü mülkiyyətə və bədənə nisbətən daha dəyərlidirsə, onda, əlbəttə ki, onların mükəmməl vəziyyəti də belə bir nisbətdə olmalıdır. Daha sonra, bütün bunlar, təbii ki, ruhdan ötrü lazımdı və bütün sağlam fikirli adamlar ruhu bunlar üçün deyil, bunları məhz ruh üçün arzu etməlidir"*. Nə gözəl? Demək, ruh hadisələr üçün deyil, məhz baş verən hadisələr ruhda əks-səda verməlidir. Ulduz Qasımın əldə olan əsərləri, çap olunan yaradıcılıq məhsulları göstərir ki, yazının əvvəlində dediyimiz kimi o, sözlə nəfəs alır. Sözlə yaşayır. Sözün gücünü, sözün qüdrətini bildiyindən öz sözündə inamlıdır. Hegel deyirdi ki, *"ruhun tərəqqisi onun inkişafıdır, belə ki, onun varlığı, biliyi onun özündə öz məzmununu ifadə edir... Məqsədi gerçəkliyə çevirən fəaliyyət qayıdışa... keçiddir"*. Burada qərb filosofunun düşüncələrini bir qədər ixtisarla və həm də məqsədə müvafiq təqdim etməkdə qəsdimiz budur ki, Ulduz Qasım düşüncə etibarı ilə durğun mühit yaşamayıb. O daim vətəni ilə - Azərbaycanla bağlı hadisələri düşüncəsindən keçirib. Ruhunda yaşadıb və ən başlıcası, baş verən hadisələrin məntiqi inkişafını dərk edib.

Sənətkar üçün əsas şərt həyatı qavramaqdır. Ayzek Əzimov adlı görkəmli bir yazıçı var ki, o, bütün həyatı boyu yazı məkanını dəyişməyib. Amma onun yaradıcılıq üfüqləri son dərəcə genişdir. Hətta insan ayağının dəymədiyi yerlərə belə nüfuz edən düşüncə sahibi olub. Bu mənada Ulduz Qasımın cismən Moskvada olması onun ruhən Azərbaycanda olmaması demək deyil.

Yazıçının tarixi taleyində əsas amillərdən biri də onun oxunmasıdır, sənətkar kimi dərk olunmasıdır. Oxucu ilə yazıçı arasında isti körpünün mövcudluğudur.

Ulduz Qasım cəmiyyətlə, insanlarla, keçmiş təbirlə desək, oxucularla özü arasında əsərləri ilə ünsiyyət körpüsü qurmaq gücündə olan sənətkardır.

Yazıçı oxunmağı onun sənətinin yaşarı tərəfinin təsdiqidir. Bu gün Ulduz Qasım Moskvada, Azərbaycanda, Türkiyədə, İranda və Avropanın bir çox ölkələrində oxunan sənətkardır. Ən azı, aəzrbaycanlıların məskun olduğu dünya ölkələrindən onun əsərlərinə istək çağırışları var.

***16.05.2022***